# Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir

## İyirmi yeddi illik həsrətdən sonrakı vüsal

### Zəngilanlılar doğma ocağa qayıtmağı səbirsizliklə gözləyirlər

***Əsrarəngiz təbiətə, zəngin yeraltı və yerüstü sərvətlərə, qədim tarixə malik doğma Zəngilanımız 27 ildir ki, Ermənistan qəsbkarları tərəfindən vəhşicəsinə istismar və amansızcasına tar-mar edilirdi…***

Keçən əsrin 80-ci illərinin sonlarından yırtıcı və hiyləgər düşmənlə üz-üzə tənha və köməksiz qalan Zəngilan müharibə alovunun yandırıcı qasırğasını və yaralarını Qarabağ ətrafındakı bölgələr arasında daha tez hiss edən rayonlardan biri olmuşdur. Belə ki, erməni daşnakları öz tərəfdarlarının xeyir-duası və hərtərəfli dəstəyi ilə o illərdə rayonun Seyidlər, Ağkənd, Qazançı, Günqışlaq, Pirveys, Canbar, Kollu, Rəzdərə, Yuxarı Yeməzli və Ağbis kəndlərində, Şükürataz dağlarının yaylaqlarında təxribat işləri aparır, xarici havadarlarının köməyi ilə əldə etdikləri müasir silahlardan sərhəd kəndlərimizi atəşə tutur, əhali arasında vahimə yaradırdı. Bir çox hallarda onlar dinc əhalini girov götürməyə cəhd edirdilər. Bəzi hallarda isə bu iyrənc və insanlığa sığışmayan istəklərinə nail olurdular.

Vətənin belə ağır günündə namərd, nanəcib qonşularımızın torpaqlarımıza təcavüzünün tüğyan etdiyi bir zamanda respublikamız öz dövlət müstəqilliyini elan etdi. Qəbul edilən ilkin qərarlardan biri də Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Ərazi Özünümüdafiə Qüvvələrinin yaradılması oldu. Nazirlər Kabinetinin müvafiq sərəncamı əsasında Müdafiə nazirinin əmri ilə qısa müddət ərzində sərhəd rayonlarında ərazi özünümüdafiə taborları təşkil olunmağa və yaradılmağa başladı.

Həmin dövrdə yəni,1991-ci ilin iyununda Bakı Sosial İdarəetmə və Politologiya İnstitunu fərqlənmə diplomu ilə bitirib doğma Zəngilana qayıtmış və Zəngilan rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi (XDS İK) sədrinin müavini vəzifəsinə təyin olunmuşdum. Bu yeni təyinatda əsas vəzifələrdən biri rayonda xidmət göstərən sovet silahlı hərbi birləşmələrinin hissələri, yerli hüquq-mühafizə orqanları ilə birlikdə əhalinin və sərhədlərin qorunmasını təşkil etmək idi.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sədri Həsən Həsənovun rəhbərlyi altında Ermənistanla sərhəd rayonlarında bu vəzifəyə təyin olunmuş və olunması planlaşdırılan, eyni zamanda, digər cavabdeh şəxslərlə müşavirə keçirildi. Bir neçə gün aparılan gərgin müzakirələrdən sonra qərara alındı ki, rayonların XDS İK-nin sədr müavinləri ehtiyatda olan zabitlərdən seçiliblərsə tabor komandiri vəzifəsinə təyin edilsinlər. Buna görə də Zəngilan rayon ərazi özünümüdafiə taborunun komandiri vəzifəsinə təyin edilməyim üçün yeni yaradılmış Müdafiə Nazirliyi və Azərbaycan Respublikası Ərazi Özünümüdafiə Qüvvələri Komandanlığı qarşısında vəsatət qaldırıldı.

İlk addım kimi taborun qərargahı Zəngilan RİH başçısının sərəncamı ilə Zəngilan rayon 144 nömrəli texniki peşə məktəbinin bazasında yerləşdirildi.

Belə bir mürəkkəb və qeyri-sabit şəraitdə Vətəni qorumaq üçün rayon hərbi komissarı mayor Eldar Tağıyevlə müzakirələr apardıqdan sonra onun yaxın köməyi ilə hərbi -qeydiyyat ixtisaslarına uyğun olaraq taborun zabit, gizir, çavuş və sıravi heyəti seçildikdən sonra hərbi xidmətə çağırış başlandı. Hər bir qərar qanun çərçivəsində qəbul edilirdi.

Nəticədə, qısa müddət ərzində Zəngilanın qeyrətli və vətənpərvər övladlarından ibarət çox çevik və nizami bir tabor yaradıldı. Bura ehtiyatda olan zabitlər Süleyman Nuriyev, Cümşüd Əbilov, Rasim Əhmədov, İntiqam Məmmədov, Ceyhun Məmmədyarov, Rza Rəsulov, Yusif Quliyev, Mirməhəmməd Cəfərov, Cabbar Məmmədov,, Sabir Nəsibov, Ənvər Məmmədov, Mahir Qocayev, Barat Xanlarov, İsmixan Məmmədov, Mustafa Həsənov, Mahir Məmmədov, Mahmud Hüseynov, Pənah Rzaquliyev kimi vətənpərvər oğullar daxil oldular. Tabor Bakıdan heç bir kömək görmədən və gözləmədən Vətənin müdafiəsinə qalxdı, müasir silahlar və texnika ilə silahlanmış erməni dığalarının həmlələri qəhrəmancasına dəf edildi. Ölənlər, yaralananlar oldu, amma düşmən qarşısından geri çəkilən olmadı.

Mən digər rayonların nümayəndələri ilə birlikdə bir neçə dəfə Müdafiə Nazirliyində keçirilən müşavirələrdə və hərbi təlimlərdə iştirak etdim. Müdafiə Nazirliyində nazir Valeh Bərşadlı və Azərbaycan Respublikası Ərazi Özünümüdafiə Qüvvələri komandanı, general-mayor Dadaş Rzayevin iştirak ilə keçirilən müşavirələrin birində qərara alındı ki, təcili olaraq sərhəd rayonlarında fəaliyyət göstərən taborlara komandirlər təyin edilsin.

Beləliklə, 10 noyabr 1991-ci ildə Müdafiə nazirinin əmri ilə Azərbaycan Respubliksaı Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə çağrıldım və Zəngilan rayon ərazi özünümüdafiə taborunun – 806 saylı hərbi hissənin komandiri təyin edildim. Bu o zaman idi ki, respublikamızda hərc-mərclik tüğyan edirdi, rəhbərlik uğrunda qırğın gedir, hamı mənəm-mən deyirdi. Vətən, torpaq, Qarabağ qan ağlayırdı, nizami ordumuz olmadığına görə mənfur düşmənimiz olan ermənilər də davamlı olaraq öz işlərini görürdülər. Zəngilan rayonunda isə mərkəzdən gələn göstərişlər əsasında əhalinin əlində olan ov tüfəngləri, məktəblərdə olan təlim avtomatları, rayonun Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətinin balansında olan atıcı silahlar alınaraq əliyalın həmyerlilərimizin ümid yerlərini puça çıxarmışdılar. Əlimizdə olan yeganə silah-sursat və texnika sovet ordusunun rayonun sərhəd kəndlərində yerləşdirilmiş hərbi hissələri çıxarılarkən onlarla aparılan danışıqlar nəticəsində təhvil aldığımız silah və texnika oldu. Vaxtında göstərilən bu təşəbbüsə isə yerli rəhbərlik və hüquq-mühafizə orqanlarını qane etmədiyinə görə bizə hədə-qorxu gəldilər. Bu lazımsız və yerində olmayan təhdidlər məni və taborun şəxsi heyətini qətiyyən qorxutmadı. Nəticədə, taborun istifadəsi üçün ilkin silah-sursat və hərbi texnika əldə edildi. Bu isə sərhədyanı əhalinin təhlükəsizliyinin qorunması və sərhədlərinin müdafiəsi üçün kifayət etmirdi. Ona görə də yığılmış silahların geri qaytarılması üçün yerli rəhbərliyə müraciət olunsa da heç bir müsbət cavab alınmadı. Lakin bu taborun qeyrətli oğullarının döyüş ruhunu sarsıtmadı. Əksinə taborun cəsur və qorxmaz döyüşçüləri, eyni zamanda, Zəngilan rayon polis şöbəsinin qəhrəman əməkdaşlarının mənfur düşmənə qarşı nifrətini daha da artırırdı.

Həmin çətin və son dərəcə unudulmaz olan günləri xatırladıqca heyrətlənir və təəssüf hissi keçirirəm. 1992-ci ilin Novruz bayramı yaxınlaşmaqda idi. Mənfur düşmənlərimiz sərhəd kəndlərində əhalinin silahsız olduğundan məlumatlı idilər. Ona görə də onlar yeni təxribatlara ciddi hazırlaşırdılar. Taborun komandiri kimi əhalinin təhlükəsizliyinin təmin edilməsində və rayonun sərhəd kəndlərinin qorunmasında və mühafizəsində məsul bir şəxs kimi bu məsuliyyəti dərindən dərk etdiyimdən dəfələrlə rayon müdafiə şurasının iclaslarında yığılmış silahların qaytarılması üçün müraciətlərimiz qulaqardına vurulurdu. Buna görə də, laçınlı dostlarımın köməyinə üz tutdum. Onların vasitəsi ilə Laçın rayon ərazi özünümüdafiə taborunun komandiri ilə görüşmək qərarına gəldim. Həmin gün taborun komandiri xidməti zərurətlə əlaqədar olmadığına görə qərargah rəisi ilə görüşdüm. Söhbət zamanı məlum oldu ki, laçınlıların da vəziyyəti bizimki kimi ürəkaçan deyil. Bir sözlə, digər qonşu rayonlarda da vəziyyət acınacaqlı idi. Kor-peşman geri qayıdıb uzun çəkişmələrdən sonra və müxtəlif təsir vasitələrindən istifadə edərək silahların sərhəd kəndlərinin əhalisinə paylanmasına nail olduq. Xatırladım ki, həmin müddətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Cinayət-Axtarış İdarəsinin rəisi, polis polkovniki Qüdrət Paşayev silahların qaytarılmasında böyük kömək göstərdi. Onun təşəbbüsü ilə Daxili İşlər Nazirliyindən göstəriş verildi ki, məktəblərdən və rayonun Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətindən yığılmış bütün silahlar tabora qaytarılsın. Taborun silah xidməti rəisi həmin silahları qəbul etdikdən sonra onları sərhədlərdə döyüş keşiyində olan şəxsi heyətə payladı. Bir müddət sonra Ermənistan və Qarabağda olan erməni terrorçulardan tutulan silahlar da taborumuza təhvil verildi.

Müdafiə Nazirliyinə verilən sifarişlər əsasında tabora bir neçə xüsusi təyinatlı avtomobillər, texnika, silah və sursat verildi. Bundan başqa, Zəngilanın Bakı şəhərində və digər rayonlarda yaşayan ziyalılarının dəstəyi ilə tabora hərbi texnika, silah-sursat, yanacaq, geyim dəstləri və digər yardımlar edilirdi. Bu işin təşkilində xüsusi xidməti olanların – Tofiq Mehdiyevin, Bəxtiyar Süleymanovun, Ənvər Məmmədyarovun, Qüdrət Paşayevin, İslah Paşayevin, Dünyamalı Dünyamalıyevin, Nadir Hacıyevin, Rəsul İmaməliyevin, Məhiyəddin Abdullayevin, Tofiq Bağırovun, İlham Hüseynovun, Əlqəmə Orucovun və digərlərinin adlarını ehtiram hissi ilə xatırlatmaq yerinə düşərdi.

Taborun şəxsi heyət, silah-sursat və texnika ilə komplektləşdirilməsi sahəsində onun döyüş ruhu nəzərəçarpacaq dərəcədə yüksəldi. Bu isə elimizin qədirbilən ağsaqqallarının, ağbirçəklərinin və yurdsevər gənclərinin hədsiz-hüdudsuz sevincinə səbəb oldu. Nəticədə, yurd və el-oba qeyrətini çəkən elimizin insanları Novruz bayramlarını qorxusuz qeyd edə bildilər. Lakin sən saydığını say, görək fələk nə sayır. Artıq 1992-ci ilin mart ayının sonlarında və aprelin başlanğıcında təpədən-dırnağadək müasir texnika və silah-sursatla silahlanmış qaniçən ermənilər sərhəd kəndlərimizi döyüş zonasına çevirməyə cəhd edir, eyni vaxtda müxtəlif istiqamətlərdən hücuma keçir, ağır artilleriya atəşlərindən, hücum vertolyotlarından və çevik təxribat qruplarından istifadə edirdilər. 1992-ci ilin mayından etibarən ölkədə gedən qeyri-sabit siyasi və iqtisadi vəziyyət düşmənlərin əl-qolunu daha da geniş açmağa imkan verdiyinə görə hiyləgər ermənilər Dağlıq Qarabağın ən mühüm strateji nöqtələrini, əsas rayonlarını işğal etməklə Qarabağ ətrafında olan qonşu rayonların tez bir zamanda qəsb edilməsini sürətləndirdilər. Nəticədə Ağdam, Füzuli, Cəbrayıl və Qubadlının işğalı reallığa çevrildi və doğma Zəngilanımız hər tərəfdən mühasirədə qaldı. Hərbi işdən az-çox məlumatı olan insanlar yaxşı bilirlər ki, rayonun qorunması və müdafiəsi artıq müşkülə çevrilmişdir. Yalnız bir alayın ümidinə qalan Zəngilanı qorumaq artıq qeyri-mümkün idi. Ona görə də Ermənistanın və Dağlıq Qarabağın birləşmiş mobil qüvvələri ilə qarşı-qarşıya dayanmış Zəngilan alayı mənfur düşmənlə qeyri-bərabər döyüşə girmək məcburiyyətində qaldı. Qorxduq ki, ikinci Xocalı faciəsi baş versin. Lakin Zəngilan RİH başçısı İlham Hüseynov və çox istedadlı hərbçi, alayın komandiri, polkovnik Firudin Şabanovun komandanlığı altında mərd və qorxmaz oğulların düşmənlə qeyri-bərabər və amansız döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar sayəsində əhalini az itki ilə Arazın o tayına keçirilməsi təmin edildi.

1993-cü il oktyabr ayının son beş günü ərzində gedən qeyri-bərabər döyüşlərdə alayın qəhrəman zabit, gizir, çavuş və əsgərləri bir daha doğma torpağa olan sevgilərini mərd və qorxmazlıqlarını sınaqdan çıxararaq düşmən hücumunun qarşısını aldı, bəzi hallarda onu ləngidərək onların illərlə hazırladıqları dəhşətli planlarını və iyrənc arzularının, yəni Zəngilanda Xocalı qətliamının baş verməsinin qarşısı alındı. Bu ölüm-dirim mübarizəsində Baloğlan Süleymanov, Emin Nəsibov, Qasım Mönsümov, Bəhram Adıgözəlov, Əlibaba Məmmədov və digərləri qəhrəmancasına həlak oldular, onlarca əsgər ağır yaralandı. Çox təəssüflər olsun ki, belə qəhrəmanlıq nümunələri acı sonluqla bitdi, torpaqlarımız işğal edildi və 30 mindən artıq zəngilanlı öz doğma yurdunu, el-obasını dərin kədər hissi ilə tərk etməyə məcbur oldu.

Artıq 27 ildir ki, köçkün ömrü yaşayırıq. Azərbaycan dövlətinin qayğısını öz üzərlərində hər an hiss edən, sağlam düşüncəyə, gələcəyə böyük inam hissi olan zəngilanlıların doğma torpaqlarına qayıtmaq arzusu bir an da olsun azalmayıb. Əksinə, təsəvvürolunmaz dərəcədə yüksəlib. Cünki qədirbilən zəngilanlılar qalib Prezidentinə və müzəffər ordusuna tam qətiyyətləri ilə inanırlar. Məhz bu inamın nəticəsidir ki, müzəffər və şanlı ordumuz qaniçən düşmən tapdağı altında olan müqəddəs və doğma torpaqlarımızın tez bir zamanda azad edilməsi üçün başladığı əks hücum əməliyyatlarını günü-gündən genişləndirir, yeni-yeni zəfərlər çalaraq mənfur, hiyləgər, yalançı və şərəfsiz düşmənin döyüşlərə cəlb edilmiş bütün qoşun birləşmələrini, könüllü dəstələrini, xaricdən gətirdiyi terrorçu qruplaşmaları yerlə-yeksan edir və tarixi qələblər qazanmaqda davam edir. Bu şanlı zəfərlər sırasIında Fizuli, Cəbrayıl, Xocavəndin ardınca Zəngilan şəhərinin və rayonun bir neçə kəndinin olması bütün Azərbaycan xalqı kimi zəngilanlıların da uzun illər ərzində çəkdikləri Vətən həsrətinə və nisgilinə son qoydu. Mənim də hədsiz və tükənməz sevinc və fərəhimə səbəb oldu. 20 oktyabr 2020-ci il zəfər ilimizin zəfərlər ayında tarixə əbədi həkk olundu. Nə az, nə çox düz üç gün telefonuma keçmiş hərbçi dostlarımdan, müxtəlif illərdə bir yerdə işlədiyim insanlardan, tələbələrimdən, jurnalistlərdən, bir sözlə, tanıdığım hər bir şəxsdən təbriklər gəldi. Bu insanların da sevincinin həddi-hüdudu yox idi. Hamı sevinirdi və bu sevinc və təbriklər bu gün də davam edir. Çünki qalib ordumuzun zəfər yürüşü uğurla davam edir, yeni-yeni yaşayış məntəqələrimiz və strateji yüksəkliklərimiz azad edilir. Qorxaq və həyasız düşmənin iflic olmuş baş naziri,onun simasız hökumət üzvləri, Azərbaycan Ordusunun igidliyindən və cəsurluğundan qorxaraq özünü itirmiş erməni əsgər və zabitləri dabanlarına tüpürüb qaçır, döyüşdən imtina edir, cəbhəni özbaşına tərk edirlər. Bir sözlə, mərd hərbçilərimiz qarşısında tam aciz qaldıqlarını açıqdan – açığa bildirirlər.

Bütün bu faktlar ölkəmizin təhlükəsizlik sisteminin, müdafiə qabiliyyətinin hərtərəfli möhkəmləndirilməsi, hücum strategiyasının işlənib hazırlanması sahəsində ciddi uğurlara imza atdığını bariz şəkildə göstərir. Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycan Silahlı Qüvvələri öz döyüş hazırlıqlarına görə nəinki MDB məkanında ön sıralarda gedir, həm də beynəlxalq hesabatlara əsasən dünyanın 50 ən güclü ordusu cərgəsində yer alır.

Ordu quruculuğu sahəsində dövlət siyasətinin məntiqi nəticəsi olaraq son illərdə Azərbaycan Respubliksa Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı ilə Silahlı Qüvvələrimiz bütün qoşun növləri üzrə inkişaf edərək güclənmiş, maddi-texniki bazası ən müasir silah-sursat, texnika, müxtəlif növ döyüş texnikalar ilə tələb olunan səviyyədə vaxtında təmin edilmişdir. Nəticədə, ordumuzun döyüş qabiliyyəti müqayisəedilməz dərəcədə artmış və bu yırtıcı hisslərlə yanıb alovlanan düşməni döyüş meydanında aciz və xəcalətli edir.

İnanırıq ki, qüdrətli dövlətimizin gərgin səyi və Silahlı Qüvvələrin Ali Baş Komandanı, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan düzgün hərbi-siyasi taktika və strategiyanın nəticəsi əzəli və müqəddəs torpaqlarımızın tez bir zamanda düşmən tapdağından tam azad edilməsi ilə başa çatacaqdır. Elimizin-obamızın yurdsevər insanları öz doğma yurdlarına qayıdaraq qısa müddətdə böyük quruculuq və abadlıq işləri aparacaq və Zəngilanımızın daha da çiçəklənməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.



***Bayram MƏMMƏDOV,***
***Milli Məclisin deputat köməkçisi, istefada olan polkovnik-leytenant, Əməkdar müəllim***